# İNZİBATİ ƏRAZİ NÜMAYƏNDƏLİKLƏRİNDƏ HESABAT İÇLASLARI KEÇİRİLİR

***Xəbər verdiyimiz kimi yanvar ayının 7-dən rayonun inzibati ərazi nümayəndəliklərində hesabat yığıncaqlarının keçirilməsinə başlanılıb. Yığıncaqlarda icra nümayəndələri 2019-cu ildə nümayəndəliyin əhatə etdiyi ərazidə görülmüş işlər və 2020-ci ildə qarşıda duran vəzifələrə dair hesabat verirlər.***

***Hesabat yığıncaqlarının yanvar ayının 31-də başa çatacağı nəzərdə tutulmuşdur.***

## Nohurqışlaq kənd inzibati ərazi nümayəndəliyində





Nohurqışlaq kəndində keçirilən hesabat yığıncağında rayon icra hakimiyyəti başçısının həmin inzibati ərazi dairəsi üzrə səlahiyyətli nümayəndəsi Babək Məsimov 2019-cu ildə görülmüş işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.

Hesabat məruzəsində bildirilib ki, rayonun bütün yaşayış məntəqələri kimi Nohurqışlaq kəndində də 2019-cu ildə abadlıq quruculuq işləri davam edib. Əhali fasiləsiz elektrik enerjisi, içməli və suvarma suyu ilə təmin olunub, kəndarası yollar qaydaya salınıb.

Məlumat verilib ki, kənd əhalisi əsasən heyvandarlıq, bağçılıq və əkinçiliklə məşğuldur. 2019-cu ildə fermerlərə dövlət tərəfindən göstərilən qayğı sayəsində yüksək məhsuldarlıq əldə olunub. 2020-ci ilin taxıl məhsulu üçün payızlıq əkinlər mütəşəkkil və aqrotexniki qaydada aparılıb.

İcra nümayəndəsi hesabat məruzəsində 2020-ci ildə qarşıda duran vəzifələr barədə də yığıncaq iştirakçılarına ətraflı məlumat verib.

Hesabat iclasında çıxış edən kənd sakinləri inzibati ərazi nümayəndəliyinin fəaliyyəti haqqında fikirlərini söyləyib, kənddə həyata keçirilməli olan işlər barədə təkliflərini bildiriblər.

Yığıncaqda iştirak edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev çıxışında 2019-cu ildə ölkədə və rayonda həyata keçirilən sosial-iqtisadi layihələr barədə məlumat verib, Bu kontekstdə Nohurqışlaq kənd inzibati ərazi nümayəndəliyinin fəaliyyətini dəyərləndirən RİH başçısının müavini qarşıda duran vəzifələrdən danışıb.

Hesabat yığıncağında qərar layihəsi müzakirə edilərək qəbul olunub.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# İcbari tibbi sığortanın xidmətlər zərfi

## *Bu zərfə 2550 sayda müxtəlif tibbi xidmətlər daxildir*

***Məlum olduğu kimi yanvar ayının 1-dən Respublikamızın Şimal rayonlarında- o cümlədən bizim rayonda icbari tibbi sığortanın tətbiqinə başlanmışdır. Bununla əlaqədar 15 yanvar 2020-ci il tarixli «Azərbaycan» qəzetində geniş izahlı yazı dərc olunmuşdur. Yazını olduğu kimi oxucularımıza təqdim edirik.***

Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli qərarı ilə icbari tibbi sığortanın xidmətlər zərfi təsdiqlənmişdir. Qeyd edək ki, xidmətlər zərfi sığortaolunanlara müvafiq növdə, həcmdə və şərtlərlə göstərilən icbari tibbi sığortanın təminat verdiyi tibbi xidmətlərin toplusudur.

Bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) yaydığı məlumatda bildirilir ki, xidmətlər zərfinə təcili və təxirəsalınmaz tibbi yardım, ilkin səhiyyə xidməti, ixtisaslaşdırılmış ambulator yardım, stasionar tibbi yardım üzrə 2550 sayda müxtəlif tibbi xidmət daxildir. Bunlardan təcili və təxirəsalınmaz tibbi yardım üzrə 6, ilkin səhiyyə xidməti üzrə 35, ixtisaslaşdırılmış ambulator yardım üzrə 1265 və stasionar tibbi yardım üzrə 1244 xidmət təminata alınıb. Ölkədə geniş yayılmış, əlillik və ölüm riski olan xəstəliklərin stasionar şəraitdə medikamentoz və cərrahi müalicəsi icbari tibbi sığorta təminatına alınıb. Təminata alınmış əməliyyatlar sırasına sayı 150 xidmətdən çox olan həyati vacib, dəyəri yüksək olan əməliyyatlar da daxildir.

Məlumatda daha sonra qeyd olunur ki, xidmətlər zərfi əhalinin sağlamlıq vəziyyəti və səhiyyə göstəricilərinin yaxşılaşdırılmasına, tibbi xidmətlərə əlçatanlığının, tibbi xidmətlərin keyfiyyətinin artırılmasına, ilkin səhiyyə xidmətinin gücləndirilməsi hesabına xəstəliklərin erkən aşkarlanması (evlərdə baxış, sağlam həyat tərzinə dair maarifləndirmə, əhalinin sağlamlıq göstəricilərinin toplanması və mütəmadi yoxlanması və s.) məqsədilə əhalinin tibb müəssisələrinə müraciət tezliyinin artırılmasına və vaxtında müvafiq tibbi yardımla təmin olunmasına xidmət edir. Vətəndaşlara xidmətlər zərfi çərçivəsində tibbi xidmətlər (təcili və təxirəsalınmaz tibbi yardım istisna olmaqla) yalnız tibbi göstəriş olduğu hallarda "Tibbi sığorta haqqında" qanuna uyğun olaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə müqavilə bağlamış tibb müəssisələrində və ya həmin müəssisələrin göndərişi əsasında göstəriləcək.

Xidmətlər zərfində tibbi xidmətlərin adları, tarifləri, sığorta limiti, müştərək maliyyələşmə məbləğinin tətbiq edildiyi hallar, o cümlədən tibbi xidmətlərin növündən asılı olaraq göstərilməsi şərtləri və gözləmə müddətləri öz əksini tapır.

Tibbi xidmətin tarifinin sığorta hadisəsi zamanı sığortaolunan tərəfindən ödənilməli olan müəyyən hissəsi müştərək maliyyələşmə məbləğidir. Müştərək maliyyələşmə məbləği ixtisaslaşdırılmış ambulator tibbi yardım və stasionar tibbi yardım xidmətlərə görə müraciət zamanı xidmətlər zərfində müəyyən edildiyi şərtlərə riayət edilmədiyi hallarda bütün sığortaolunanlara şamil olunur. Müştərək maliyyələşmə məbləğinin ödənilməsi şərtləri xidmətlər zərfi ilə müəyyən edilir və tibb müəssisəsinə birbaşa ödənilir.

Ambulator şəraitdə göstərilən xidmətə tətbiq edilən müştərək maliyyələşmə məbləği aşağıdakı qaydada ödənilir:

İnzibati ərazi daxilində: Vətəndaş ailə həkiminin göndərişi olmadan yaşayış və ya olduğu yer üzrə qeydiyyatda olduğu inzibati ərazidə yerləşən tibb müəssisəsinə ambulator şəraitdə göstərilən tibbi xidmətə görə müraciət etdikdə hər bir sığorta hadisəsi üzrə 5 manat müştərək maliyyələşmə məbləği ödəməlidir. Məsələn, siz Şəki şəhərində qeydiyyatdasınız. Ailə həkiminə müraciət etmədən birbaşa Şəki şəhərində yerləşən tibb müəssisəsinə ixtisas həkiminə müraciət edirsiniz. Xidmətlər zərfində müəyyən edildiyi şərtlərə riayət etmədiyinizə görə, tibb müəssisəsinə 5 manat müştərək maliyyələşmə məbləği ödəməli olacaqsınız.

Tibbi ərazi bölməsi daxilində: Vətəndaş ailə həkiminin göndərişi olmadan tibbi ərazi bölməsi daxilində digər inzibati ərazidə yerləşən tibb müəssisəsinə müraciət etdikdə hər bir sığorta hadisəsinə görə 5 manat müştərək maliyyələşmə məbləği ödəməlidir. Məsələn, siz Şəki şəhərində qeydiyyatdasınız.

**(Ardı gələn nömrəmizdə).**

# İnternetdən təhlükəsiz istifadə üzrə təlim keçirilib

Gənclər və uşaqlar arasında internetdən təhlükəsiz istifadəni təbliğ etmək, gələcək nəsilləri qlobal şəbəkədəki mövcud kibertəhdidlərlə bağlı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən Təhsil Nazirliyi ilə birgə ümumi təhsil müəssisələrinin informatika müəllimləri üçün təlim keçirilib.

Təlimə video-konfrans vasitəsilə Qəbələ rayonunun ümumtəhsil məktəblərinin informatika müəllimləri də cəlb edilib. Təlimdə internetdən, eləcə də sosial şəbəkələrdən təhlükəsiz istifadə, uşaq və yeniyetmələrin üzləşdiyi kibertəhdidlər və onlardan müdafiə üsulları ilə bağlı təqdimatlar, videomateriallar nümayiş etdirilib və müəllimlərin sualları cavablandırılıb.

**"Qəbələ"**

# Microsoft şirkəti Windows-7 sisteminin istifadəçilərinə təzə kompüter almağı məsləhət görür

Yanvarın 14-dən etibarən Windows-7 əməliyyat sisteminin dəstəklənməsi dayandırılıb. Bununla əlaqədar Microsoft şirkəti Windows-7 əməliyyat sisteminin istifadəçilərinə təzə kompüter almağı məsləhət görür.

AZƏRTAC xarici KİV-lərə istinadla bildirir ki, şirkət Surface seriyasından olan firma qurğularından istifadə etməyi uyğun bilir. Məqalədə istifadəçilərin tez-tez verdiyi suallara cavab bölməsində dəqiqləşdirilir ki, mövcud kompüterdə işləyən sistemi yeniləşdirmək əvəzinə yeni fərdi kompüter almaq məsləhətdir.

Windows-7 istifadəçilərinin əksəriyyətinə Windows-10 sisteminə keçmək tövsiyə olunur. Bu qurğular daha sürətli, daha yüngül və təhlükəsiz olmaqla bərabər 8 il bundan əvvəl ortaq statistik fərdi kompüterlərin qiyməti ilə müqayisədə xeyli ucuz başa gəlir.

Şirkətin nümayəndələri bildirirlər ki, Windows-7-nin sadəcə Windows-10 ilə əvəz edilməsi məsləhət deyil, çünki bəzi komponentlər və drayverlər düzgün işləməyə bilər.

Windows-7 sisteminin istifadəçiləri köhnə kompüterlərdə Windows-10 sisteminə keçəndə həqiqətən bu cür çətinliklərlə üzləşirlər. Məsələn, kart oxuyucu qurğular və ya barmaq izlərinin skanerləri işləməyə bilər.

Adi istifadəçilər üçün Windows-7 sisteminin dəstəklənməsi 2020-ci il yanvarın 14-də başa çatıb. Statistik məlumata görə, hazırda dünyada Windows-7 sisteminin istifadəçilərinin sayı 400 milyona yaxındır.